Ədəbiyyat qəzeti

30 17 aprel 2021-ci il

# Hüseyn SÖZLÜ - 75



Hörmətli Hüseyn müəllim!

Sizi - tanınmış şairi 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlamısınız. İlk qələm təcrübələriniz mətbuatda dərc edilib və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanıb. "Dənizə bağlıyam mən" adlı ilk kitabınızın da taleyi uğurlu olub. "Həyat sevgidir, məncə", "Bu sevda bitən deyil", "Sevgiylə yaşayıram", "Ləpədöyən yerdəyəm", "Qəzəllər", "Söz dünyam, öz dünyam", "Bu qədərini yaza bildim" və s. kitablarınız işıq üzü görüb. Sizin yaradıcılığınız ölkəmizin hüdudlarından kənarda da tanınır və sevilir. Türkiyə mətbuatında və almanaxlarda yaradıcılığınızdan nümunələr qardaş ölkənin ictimaiyyətinə çatdırılıb. Siz həm də bəstəkar kimi tanınırsınız. Sizin sözlərinizə bəstələnmiş və özünüzün bəstələdiyiniz mahnı və marşlardan ibarət ölkəmizdə və Türkiyədə dörd musiqi albomu buraxılmışdır. Ədəbi uğurlarınız bir çox diplom və mükafatla, o cümlədən Türk Dünyası Beynəlxalq Araşdırmalar Akademiyasının "Qızıl ulduz" medalı ilə dəyərləndirilmişdir.

Siz Odessa Dənizçilik İnstitutunu bitirmisiniz. Uzun illərdir Azərbaycan Dövlət Dəniz Akademiyasında dərs deyirsiniz. İxtisasınız üzrə bir dərs vəsaitinin müəllifisiniz.

Hörmətli Hüseyn müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**